PARADIGMA, No.3, 2025, səh.70-74
https://doi.org/10.30546/30015.2025.3.037

# UŞAQ İSTİSMARI VƏ LAQEYDLİYİ İLƏ MÜBARİZƏDƏ SOSİAL İŞİN ROLU

**L.C. Cəfərli, E.A. Hüseynov**
Azərbaycan Universiteti, Ceyhun Hacıbəyli 71, Bakı, Azərbaycan
e-mail: Laman.Jafarli@student.au.edu.az

**Xülasə.** Tədqiqatda uşaqların istismarı və laqeydliyi problemi və sosial işin bu sahədəki rolu araşdırılır. Uşaq istismarı və laqeydlik uşaqların inkişafına ciddi təsir edir. Sosial işin müdaxilə səviyyələri arasında preventiv yanaşmalar, müdaxilə və reabilitasiya mərhələləri yer alır. Azərbaycanda uşaq istismarı ilə mübarizə üçün hüquqi baza mövcud olsa da, sosial işçilərin sayının və ixtisaslaşmasının çatışmazlığı, ictimai qınaq kimi problemlər mövcuddur. Məqalədə sosial işçilərin sayının artırılması, maarifləndirmə tədbirləri və qurumlar arasında koordinasiyanın gücləndirilməsi tövsiyə edilir. Bu yanaşmalar uşaqlar üçün təhlükəsiz və qayğıkeş bir mühitin yaradılmasına kömək edəcəkdir.

**Açar sözlər:** Uşaq istismarı, sosial iş, uşaq hüquqları, psixososial dəstək, ailə və uşaq rifahı.

## Giriş

Uşaqlar, bildiyimiz kimi, hər bir toplumda ən həssas və müdafiəyə ehtiyacı olan qrup hesab olunur. Onların fiziki, emosional və sosial inkişafı birbaşa ailə mühiti və cəmiyyətin onlara göstərdiyi münasibətlə müəyyən olunur. Lakin təəssüf ki, müasir dünyada uşaq istismarı və laqeydliyi ciddi sosial problemlər sırasında yer alır. Bu hallar da uşağın həyatına olduqca mənfi təsir edir və onun gələcəkdəki inkişafını riskə atır. Bu kontekstdə sosial iş mühüm rol oynayır. Sosial işçilər təkcə uşaqların hüquqlarını müdafiə etməklə kifayətlənmirlər, eyni zamanda onların təhlükəsizliyini təhdid edən riskləri vaxtında müəyyənləşdirir və vəziyyətə uyğun müdaxilə yolları seçərək, istismar və laqeydliyin qarşısını almağa çalışırlar.

## Uşaq istismarı və laqeydlik: anlayış və növlər

Uşaq istismarı - bir şəxsin uşağa qarşı fiziki, emosional, cinsi zorakılıq tətbiq etməsi və ya bu zorakılığa şərait yaratması kimi qiymətləndirilir. Laqeydlik isə uşağın əsas fiziki və psixoloji ehtiyaclarının - qidalanma, təhsil, tibbi yardım, psixoloji dəstək və emosional qayğının - yetkin şəxslər tərəfindən təmin olunmaması ilə xarakterizə olunur [1]; [2].

Beynəlxalq və yerli ekspertlərin fikrinə görə, uşaq istismarı və laqeydlik aşağıdakı əsas növlərdə təzahür edir:

- **Fiziki istismar** – uşağa qarşı zor tətbiq edilməsi: döymə, yandırma, silkələmə, bağlama, və ya bədənin zədələnməsinə səbəb olan digər hərəkətlər.
- **Cinsi istismar** – uşağın razılığı olmadan və ya onun inkişaf səviyyəsinə uyğun gəlməyən şəkildə cinsi məqsədlə istifadə olunması: təmaslı və təmassız formalar, uşaq pornografiyası və ya zorla evlilik halları.

• **Emosional istismar** – uşağın davamlı şəkildə təhqir, alçaldılma, qorxutma və ya rədd edilmə yolu ilə psixoloji zərərə məruz qalması.

• **Laqeydlik (neglect)** – uşağın yaşına uyğun qidalanma, gigiyena, tibbi yardım, təhlükəsizlik və təhsil kimi əsas ehtiyaclarının qəsdən və ya məsuliyyətsizlik səbəbilə qarşılanmaması.

Bu davranış formaları, uşağın emosional və sosial inkişafını zədələməklə yanaşı, onun gələcək həyatında travmalar, depressiya, aqressiya və ictimai təcrid kimi psixososial nəticələr doğura bilər [3];[4].

**Sosial işin müdaxilə səviyyələri və yanaşmaları**

Sosial iş, uşaq istismarı və laqeydliyi ilə mübarizədə çoxsəviyyəli müdaxilə və dəstək sistemləri yaradır. Bu müdaxilələr bir neçə səviyyədə həyata keçirilir:

**1. Preventiv Səviyyə**

Preventiv yanaşma, uşaqların istismar və laqeydlikdən qorunması üçün erkən müdaxiləni nəzərdə tutur. Bu mərhələdə ailələrin maarifləndirilməsi, riskli ailələrlə erkən iş, ictimai kampaniyalar və təbliğat proqramları həyata keçirilir. UNICEF-in Azərbaycandakı fəaliyyətləri arasında ailələrin və icmaların məlumatlandırılması, uşaqların hüquqlarının təbliği və erkən müdaxilə xidmətlərinin gücləndirilməsi ön plandadır [5].

**2. Müdaxilə Səviyyəsi**

Müdaxilə mərhələsi, uşaq istismarı və ya laqeydlik halları aşkarlandıqda həyata keçirilir. Bu mərhələdə sosial işçilər, hüquq-mühafizə orqanları və sosial xidmət qurumları ilə koordinasiyalı iş aparır, müvəqqəti sığınacaq və psixososial dəstək təmin edirlər. Azerbaycanda, 2019-cu ildən etibarən, Şirvan şəhərində həyata keçirilən "Ən həssas uşaqlar üçün icma və ailə əsaslı inteqrasiya olunmuş sosial xidmətlərin inkişafı" layihəsi çərçivəsində 917 ailəyə sosial, psixoloji və hüquqi xidmətlər təqdim olunmuşdur [6].

**3. Reabilitasiya və Reinteqrasiya**

Reabilitasiya mərhələsi, istismara məruz qalan uşaqların psixoloji reabilitasiyası, sosial bacarıqların inkişafı və ailəyə qayıdışın təşkil olunması ilə bağlıdır. Bu mərhələdə, uşaq və ailə ilə birgə işləyərək, onların cəmiyyətə inteqrasiyasını təmin etmək məqsəd qoyulur. Azərbaycanda, dövlət proqramları çərçivəsində, uşaq və ailələrə reabilitasiya xidmətləri göstərilir və alternativ qayğı xidmətləri inkişaf etdirilir [7].

**Sosial işçinin konkret vəzifələri**

Uşaq istismarı və laqeydliyi ilə mübarizədə sosial işçilərin birinci vəzifəsi uşağın vəziyyətini hərtərəfli qiymətləndirməkdir. Qiymətləndirmə prosesi uşağın hansı istismar

növünə məruz qaldığını, miqyasını, təcili ehtiyaclarını və mövcud dəstək mexanizmlərini müəyyənləşdirir. Bu mərhələdə uşağın yaşına və şəxsiyyətinə uyğun olaraq prosesə cəlb edilməsi vacib hesab olunur [8, 7].

Digər mühüm vəzifə travmaya həssas yanaşmadır. Sosial işçilər travmanın uşağın emosional və psixoloji sağlamlığına təsirlərini nəzərə alaraq, müdaxilə planlarını təhlükəsiz və dəstəkləyici mühitdə həyata keçirməlidirlər. Bu yanaşma uşağın və ailəsinin bərpasına kömək edir və ailə ilə sağlam münasibətlərin qurulmasını asanlaşdırır [8, 7–8].

Sosial işçi uşağın maraqlarını və hüquqlarını üstün tutmalı, onun fikirlərini dinləməli və qərar qəbuletmə prosesinə cəlb etməlidir. Uşağın ən yaxşı maraqlarının qorunması sosial iş fəaliyyətinin əsas prinsiplərindən biri hesab olunur [8, 8].

Uşağın təhlükəsizliyini təmin etmək üçün sosial işçilər fərdi təhlükəsizlik planı hazırlamalıdırlar. Bu plan uşağın gələcəkdə yenidən istismara məruz qalmaması üçün risklərin qiymətləndirilməsini və qarşısının alınması tədbirlərini nəzərdə tutur. Təhlükəsizlik planı uşağın ailəsi və digər tərəfdaşlarla birlikdə tərtib edilməlidir [8, 8].

İstismar hallarında təcili müdaxilə də sosial işçilərin əsas vəzifələrindəndir. Krizis vəziyyətində uşağın təhlükəsizliyini təmin etmək, yaranmış səbəbləri müəyyənləşdirmək və elmi əsaslı müdaxilə planı hazırlamaq vacibdir [8, 8].

Bundan əlavə, sosial işin mühüm vəzifələrindən biri işlərin idarə olunmasıdır. Bu proses hadisənin müəyyənləşdirilməsi, qeydiyyata alınması, uşağın fərdi ehtiyaclarının qiymətləndirilməsi, planın hazırlanması və icrası, monitorinq və nəticədə işin bağlanmasını əhatə edir [8, 8–9].

Nəhayət, sosial işçilər uşaqlara özlərini sərbəst ifadə edə biləcəkləri təhlükəsiz və məxfi mühit yaratmalıdırlar. Belə mühit uşağın inam hissini gücləndirir, yaşadıqlarını paylaşmasına şərait yaradır və sosial işçinin müdaxiləsini daha səmərəli edir [8, 9].

**Azərbaycan kontekstində vəziyyət və mövcud problemlər**

Azərbaycanda uşaq istismarı və laqeydliklə mübarizə üçün mövcud hüquqi baza kifayət qədər əsaslıdır. Ölkəmiz 1992-ci ildə BMT-nin Uşaq Hüquqları Konvensiyasını ratifikasiya etmiş, “Uşaq hüquqları haqqında” (1998) və “Məişət zorakılığının qarşısının alınması haqqında” (2010) qanunları qəbul etmişdir [9].

Lakin praktikada bir sıra çətinliklər hələ də qalmaqdadır. Regionlarda sosial işçilərin sayının azlığı və onların uşaq müdafiəsi üzrə ixtisaslaşmaması, istismara qarşı vaxtında müdaxiləni çətinləşdirir [10]. Eyni zamanda, ailə daxilində baş verən zorakılıq hallarının ictimai qınaq və utanc səbəbindən gizlədilməsi vəziyyəti daha mürəkkəb edir [11].

Uşaqlar üçün mövcud yardım xətləri və müdafiə mexanizmləri olsa da, onların əlçatanlığı və effektivliyi kifayət qədər deyil [12]. Bundan əlavə, dövlət və qeyri-hökumət təşkilatları arasında koordinasiyanın sistemli şəkildə qurulmaması, uşaq müdafiəsi sahəsində fəaliyyətin daha məqsədyönlü olmasını çətinləşdirir.

**Tövsiyələr və inkişaf perspektivləri**

Uşaq istismarı və laqeydliyi ilə mübarizədə sosial işin effektivliyi yalnız mövcud problemləri aradan qaldırmaqla deyil, eyni zamanda gələcəyə yönəlmiş addımların atılması ilə mümkündür. Bu istiqamətdə ilk növbədə sosial işçilərin sayının artırılması və onların ixtisaslaşmasının gücləndirilməsi zəruridir. Əgər mütəxəssislər regionlarda da işləsələr, uşaqlara dəstək daha sürətli və səmərəli olar, xidmətlər hər kəs üçün daha əlçatan olar.

Maarifləndirmə fəaliyyətlərinin genişləndirilməsi də mühüm əhəmiyyət daşıyır. Demək olar ki hər bir problemin həlli maariflənmədən başlayır, bu kimi tədbirlərin həyata keçirilməsi uşaqların təhlükəsizlik biliklərini genişləndirir, eyni zamanda valideynlərin övladlarına qarşı öhdəliklərini gücləndirir. Uşaqlar üçün anonim müraciət kanallarının təbliği onların təhlükəsiz şəkildə kömək axtarmasına şərait yaradar.

Sosial işin gələcək inkişafı həm də qurumlararası əməkdaşlıqdan asılıdır. Dövlət orqanları, qeyri-hökumət təşkilatları və təhsil müəssisələri arasında qarşılıqlı koordinasiya sosial xidmətlərin daha sistemli və məqsədyönlü həyata keçirilməsinə imkan verər. Bundan əlavə, sosial iş üzrə təhsil alan tələbələrin praktik bacarıqlarının inkişaf etdirilməsi gələcək mütəxəssislərin real hallarla işləməyə hazırlığını artırar.

Ümumilikdə, bu sahədə sosial işin möhkəmləndirilməsi uşaqların rifahının təmin olunmasına, təhlükəsizliyinə kömək edir və bütövlükdə cəmiyyətin dayanıqlı inkişafını dəstəkləyir.

**Nəticə**

Uşaq istismarı və baxımsızlıqla mübarizə yalnız hüquqi tədbirlərlə məhdudlaşmamalıdır. Sadəcə qanunların tətbiqi kifayət deyil; uşaqların qorunması üçün sosial dəstək və cəmiyyətin ortaq məsuliyyəti də vacibdir. Sosial işçilər uşaqların səsini eşidən, onları qoruyan və həyatlarında real dəyişiklik yaradan şəxslərdir. Bu səbəbdən sosial işin institusional gücləndirilməsi və davamlı inkişafı uşaqlar üçün təhlükəsiz gələcəyin təminatıdır.

## Ədəbiyyat

1. https://www.unicef.org/child-protection
2. https://www.who.int/news-room/fact-sheets/detail/child-maltreatment

3. https://www.nspcc.org.uk/what-is-child-abuse/
4. https://www.intechopen.com/chapters/37753
5. https://www.unicef.org/azerbaijan/what-we-do/child-protection
6. https://www.unicef.org/azerbaijan/stories/protecting-children-violence-abuse-exploitation-and-neglect
7. https://www.sciencedirect.com/science/article/abs/pii/S0145213417304143
8. https://eventsgate.org/ijhss
9. https://e-qanun.az/framework/3233
10. https://www.unicef.org/azerbaijan/stories/protecting-children-violence-abuse-exploitation-and-neglect
11. https://bakuresearchinstitute.org/az/usaqlara-qarsi-zorakiliq-az%C9%99rbaycanda-movcud-v%C9%99ziyy%C9%99t/
12. https://scfwca.gov.az/

## THE ROLE OF SOCIAL WORK IN COMBATING CHILD ABUSE AND NEGLECT

**L.C. Jafarli, E.A. Huseynov**
Azerbaijan University, Jeyhun Hajibeyli 71, Baku, Azerbaijan

**Abstract.** This article examines the challenges of child abuse and neglect, along with the crucial role of social work in addressing these issues. Such negative experiences deeply affect children’s psychological, physical, and social development. Social work interventions operate at three levels: prevention, direct response, and rehabilitation. Although Azerbaijan has established a legal framework to protect children, difficulties remain, including a shortage of trained social workers, insufficient specialization, and social stigma surrounding family violence. The paper highlights the need to expand the workforce of social workers, strengthen awareness-raising activities, and improve collaboration among institutions. These measures can contribute to building a safe and supportive environment for every child.

**Keywords:** Child abuse, social work, child rights, psychosocial support, family and child welfare.